**Təsdiq edilmişdir**
**"Unibank" Kommersiya Bankı" Açıq**
**Səhmdar Cəmiyyətinin Səhmdarlarının**
**Növbədənkənar Ümumi Yığıncağının**
**19 mart 2021-ci il tarixli**
**1 saylı Protokolu ilə təsdiq edilmişdir**

# "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti
## 2020-ci il üzrə
## İLLİK HESABAT

| | |
|---|---|
| 1. Emitentitn təşkilati-hüquqi forması, tam və qısaldılmış adı, dövlət qeydiyyatının tarixi və nömrəsi; | Emitentin təşkilati-hüquqi forması: açıq səhmdar cəmiyyəti;<br>Emitentin tam adı: "UNİBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti;<br>qısaldılmış şəkildə "UNİBANK" Kommersiya Bankı<br>Dövlət qeydiyyat tarixi: 27.07.1992,<br>Dövlət qeydiyyat nömrəsi: 1300017201 |
| 2. Emitentin hüquqi ünvanı və olduğu yer; | Ünvan: Azərbaycan Respublikası, AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, 384-cü məhəllə, Rəşid Behbudov küçəsi 55; |
| 3. Emitentin adında və təşkilati-hüquqi formasında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları və təşkilati-hüquqi formaları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı və təşkilati-hüquqi forması, emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları və təşkilati-hüquqi formaları; | Emitent öz hazırki adını "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin 6 dekabr 2002-ci il tarixli Səhmdarlarının Ümumi Yığıncağının qərarı (Protokol № 2) və 27 dekabr 2002-ci il tarixdə "UNİBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş dəyişiklik əsasında almışdır. Bank "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının və "MBANK" Səhmdar Kommersiya Bankının Səhmdarlarının 16 sentyabr 2002-ci il tarixli birgə Ümumi Yığıncağının qərarına (protokol № 1) və 15 oktyabr 2002-cil il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Nizamnaməsinə əsasən "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının "MBANK" Səhmdar Kommersiya Bankına qoşulması nəticəsində yenidən təşkil edilmişdir. Bu qoşulma nəticəsində "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının bütün hüquq və vəzifələri "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinə keçmişdir. Emitent "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisi olmaqla onun bütün hüquq və öhdəliklərini əldə etmişdir. |
| 4. emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Olmayıb |

| | |
|---|---|
| 5. Emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquq forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, yaxud cəmiyyətin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti; | Olmayıb |
| 6. emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı; | Deyil. |
| 7. emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | Bank fəaliyyəti |
| 8. emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | 14 dekabr 2010-cu il tarixli 73 saylı bank fəaliyyətinin həyata keçirilməsi üçün Bank lisenziyası.<br>Fəaliyyət növləri:<br>Milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi və "Banklar haqqında" Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulmuş digər fəaliyyət növlərinin həyata keçirilməsi.<br>Lisenziya müddətsizdir. |
| 9. emitentin təklif etdiyi məhsullar və xidmətlər; | Kreditlərin verilməsi, Əmanətlərin cəlb olunması, hesablaşma kassa əməliyyatları və digər bank əməliyyatları |
| 10. emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | İşçi sayı:<br>2020 mart- 1260 nəfər<br>2020 iyun - 1325 nəfər<br>2020 sentyabr – 1347 nəfər<br>2020 dekabr - 1372 nəfər |
| 11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı; | **Müşahidə Şurası:**<br>Eldar Qəribov Mahmud oğlu (Sədr)<br>Emin Quliyev Natiq oğlu ( üzv)<br>Elxan Qəribli Əhməd oğlu (üzv)<br>Dr. Kamen Zaxariyev (üzv)<br>Kristof Gabriel Maetze-Engelhardt (üzv)<br><br>**İdarə Heyəti:**<br>Faiq Hüseynov Arif oğlu (Sədr)<br>İqor Okayev Anatolyeviç (Sədrin birinci müavini)<br>Fərid Abuşov Şakir oğlu (Sədrin müavini)<br><br>**Audit Komitəsi:**<br>Faiq Zeynalov Vahib oğlu (Sədr)<br>Səbinə Tağıyeva Ramizovna (üzv)<br>Adil Hüseynov Şeyruz oğlu (üzv) |

| | |
|---|---|
| 12 emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı; | 9 fiziki və 1 hüquqi şəxs adi səhm sahibi |
| 13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı; | 1.Qəribov Eldar Mahmud oğlu, 39 916 476 ədəd sənədsiz, adlı adi səhm;<br>Emitentin Nizamnamə kapitalında 86.3839 % malikdir.<br>2. Canley Finance S.A (Lüksemburq Böyük Hersoqluğu, Giyom Şneyder k., L-2522), 3 512 025 ədəd sənədsiz, adlı adi səhm;<br>Emitentin Nizamnamə kapitalında 7,6004% malikdir. |
| 14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | 1. Hüquqi ünvanı- Azərbaycan Respublikası, Bakı şəhəri, Nəsimi rayonu, 384-cü məhəllə, Rəşid Behbudov küçəsi 55, faktiki ünvanı – Bakı şəhəri, Xətai rayonu, "Azure" Business Center, 12-ci mərtəbə, Nobel pr. 15, 1212-ci məhəllə, VÖEN: 1401258741 olan "Unicapital" Açıq Səhmdar Cəmiyyəti – nizamnamə kapitalında pay- 100%. |
| **15. emitentin səhmdarlarının (payçılarının) hesabat ili ərzində keçirilmiş yığıncaqları barədə məlumat:** | |
| 15.1. yığıncağın keçirilmə tarixi və yeri (ünvanı): | 1. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 18 mart 2020-ci il tarixində keçirilən Səhmdarların Növbədənkənar ümumi yığıncağı.<br><br>2. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 18 iyun 2020- ci il tarixində keçirilən Səhmdarların İllik ümumi yığıncağı.<br><br>3. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 23 dekabr 2020- ci il tarixində keçirilən Səhmdarların Növbədənkənar ümumi yığıncağı. |
| **15.2 ümumi yığıncaqda qəbul edilmiş qərarlar;** | **18 mart 2020-ci il tarixində Səhmdarların Növbədənkənar ümumi yığıncağında qəbul edilən qərarlar (1 saylı protokol)**<br><br>1. Bankın idarəetmə strukturuna daxil olan orqanlarına təyinatlar barədə.<br><br>**18 iyun 2020-ci il tarixində Səhmdarların İllik ümumi yığıncağında qəbul edilən qərarlar (2 saylı protokol)**<br><br>**1.** "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin 2019-cu maliyyə ilinin nəticələri barədə və maliyyə hesabatlarının təsdiqi. |

| | |
|---|---|
| | **2.** "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin investisiya qiymətli kağızlarının emitenti olaraq 2019-cu il üzrə İllik hesabatının təsdiqi.<br>**3.** "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin idarəetmə orqanlarına dair məsələlərin müzakirəsi.<br>**4.** Kənar auditorun təyin edilməsi barədə.<br><br>**23 dekabr 2020-ci il tarixində Səhmdarların növbədənkənar ümumi yığıncağında qəbul edilən qərarlar (3 saylı protokol)**<br><br>1."Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin korporativ sənədlərinin qəbul edilməsi haqqında.<br>2. "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin təşkilati və digər məsələlərinin müzakirəsi. |
| **16.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):** | |
| 16.1. investisiya qiymətli kağızın növü və forması; | 1 000 ədəd faizli, sənədsiz, adlı təmin edilməmiş istiqraz.<br>46 208 219 ədəd sənədsiz adlı adi səhm. |
| 16.2 investisiya qiymətli kağızların dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi; | -1 000 ədəd faizli, sənədsiz, adlı təmin edilməmiş istiqrazın dövlət qeydiyyat nömrəsi AZ2011002022 dövlət qeydiyyat tarixi 28.11.2017-ci il;<br>-20 796 000 ədəd sənədsiz, adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024, dövlət qeydiyyat tarixi 29.03.2012-ci il;<br>-18 059 226 ədəd sənədsiz, adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024, dövlət qeydiyyat tarixi 18.05.2017 -ci il;<br>- 5 147 100 ədəd sənədsiz, adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024, dövlət qeydiyyat tarixi 23.08.2017 -ci il;<br>-2 205 893 ədəd sənədsiz, adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024, dövlət qeydiyyat tarixi 12.12.2017-ci il. |
| 16.3 investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri; | 1 000 ədəd faizli, sənədsiz, adlı təmin edilməmiş istiqraz, hər birinin nominal dəyəri 10 000 ABŞ dolları.<br>- 46 208 219 ədəd sənədsiz adlı adi səhm, nominal dəyəri 2.72 manat. |
| 16.4.investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri; | - 10 000 000 ABŞ dolları məbləğində istiqraz.<br>- 125 686 355.68 manat məbləğində səhm. |
| 16.5. hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir); | Sənədsiz adlı adi səhmlər üzrə cəmi 5,082,904.09 manat. |

| | |
|---|---|
| 16.6 faizli istiqrazlar buraxılışı haqqında məlumatda-istiqrazlar üzrə gəlirliyinin illik faiz dərəcəsi; | 1000 ədəd faizli təmin edilməmiş sənədsiz istiqraz üzrə İstiqrazın nominal dəyərindən 6 faiz illik olmaqla istiqrazların tədavül müddəti ərzində hər 90 (doxsan) təqvim gününün başa çatması tarixindən növbəti 3 iş günündən gec olmayaraq faiz ödənilir. |
| 16.7 investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda): | "Bakı Fond Birjası" QSC, Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tower, AZ1141. |
| 17.emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:<br>17.1.əqdin məbləği;<br>17.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi; | Belə əqd bağlanılmamışdır. |
| 18. emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>18.1. bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;<br>18.2.aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | Aidiyyəti şəxslərlə bağlanmış əqdlərin ümumi məbləği: 5 561 374 manat.<br>Ümumi sayı: 122 ədəd<br>Müştəri baxımından – 11 hüquqi şəxs, qalanı fiziki şəxs |
| 19. illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi | 19 mart 2021-ci il |
| 20. hesabatın açıqlanma mənbəyi haqqında məlumat | "Unibank" Kommersiya Bankının rəsmi saytı və kütləvi informasiya vasitələri, qanunvericiliklə müəyyən edilmiş vahid məlumat resursu. |

İdarə Heyətinin Sədri — Faiq Hüseynov

Baş mühasib — Anna Kostina

# "S.L.S AUDİT-CONSULTİNG XİDMƏTİ" MMC

Baku, Azerbaijan, Babak ave. 95, apt. 122; mobile: (+99450) 394-66-02
xaladdin-aliyev@mail.ru VÖEN;1603088981
İCAZƏ A/T 213; 02 sentyabr 2020-ci il

**"UNİBANK" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətinin**

**Səhmdarlarına**

**"UNİBANK" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətində maliyyə hesabatları-Prudensial hesabat üzrə aparılmış audit yoxlamasının nəticələrinə dair auditorun hesabatı**

**Rəy**

Mən "UNİBANK" KB ASC-nin 31 dekabr 2020-ci tarixinə maliyyə vəziyyəti, balans hesabatından və bu tarixdə başa çatmış il üzrə **Bank Prudensial hesabatı:maliyyə vəziyyəti , mənfəət və zərərlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin axını barədə** hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər məlumatların, izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (BMHS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (BMHS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

## Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik

Mən diqqəti "UNİBANK" KB ASC -nin maliyyə hesabatlarına dair izahedici qeydlərində olan koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı cəmiyyətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəltmək istərdim. İzahedici qeydlərdə hazırki şəraitdə "UNİBANK" KB ASC -nin öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilmişdir. Bu şəraitlə əlaqədar mən öz mülahizələrimə dəyişikliklər etməmişəm.

## Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Mənim məqsədim əlavə edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığma dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor

hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar şəffaflıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqiliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram.

Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarmdakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrin auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən Sədrə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin Sədrə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Sədrin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandınlmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatımda təsvir edirəm.

Hesabat 15.03.2021-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri **"UNİBANK" KB ASC–nin** rəhbərliyinə təqdim edilir, ikincisi isə auditor təşkilatında saxlanılır.

**"S.L.S Audit-Consulting Xidməti"MMC**
**Direktor- auditor** **X.C.Əliyev**
**M.Y**

**15 mart 2021-ci il**

## «UNİBANK »Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2020-ci il tarixə maliyyə vəziyyəti haqqında (balans)

## HESABATI

min manatla

| s.n | *Aktivlər* | 31 dekabr 2020-ci il | |
|---|---|---|---|
| 1. | Nağd pul vəsaitləri cəmi | | **55631,04** |
| 2. | Mərkəzi Banka qarşı tələblər,cəmi | | **35890,56** |
| | b) ehtiyat hesabları | 3162,90 | |
| 3. | « Nostro » hesabları (başqa banklardakı müxbir hesabları) cəmi | | **10577,10** |
| | a)Rezident banklar | 4,92 | |
| | b) qeyri-rezident banklar | 10572,18 | |
| 4. | Banklarda daxil olmaqla maliyyə müəssələrindəki depozitlər cəmi | | **48057,07** |
| | a)Rezident banklar | 46610,08 | |
| | b) Qeyri-rezident banklar | 0.00 | |
| | q) Digər maliyyə institutlarında depozitlər | 1446.99 | |
| 5. | Xalis kreditlər və lizinqlərin | | **477955,16** |
| 6. | Investisiyalar və qiymətli kağızlar | | **44192,79** |
| 7. | Digər icmallaşmış şirkətlərə və birgə müəssisələrə investisiya və maliyyə Iştirakı | | **992,99** |
| 8. | Digər maliyyə instutlarına xalis kreditlər | | **5766.24** |
| 9. | Banklara kreditlər | | - |
| 10. | Əsas vəsaitlər | | **77407,16** |
| 11. | Qeyri-maddi aktivlər | | **15299,15** |
| 12. | Digər aktivlər | | **44042.04** |
| | ***Aktivlərin cəmi:*** | | **815811.30** |
| | ***Öhdəliklərin maddələri*** | | |
| 1. | Mərkəzi bankın Banka qarşı tələbləri | | **34725,47** |
| 2. | REPO əməliyyatlar üzrə | | **8037,23** |
| 2. | Depozitlər(banklar və digər maliyyə müəssisələri istisna olmaqla)cəmi: | | **522366,50** |
| | a)Hüquqi şəxslərin tələbli depozitləri (bütün cari və çek hesabları daxil olmaqla)cəmi: | 93787,86 | |
| | A1)faizsiz tələbli depozitlər | 93787,86 | |
| | b) Fiziki şəxslərin tələbli depozitləri | 94238,67 | |
| | B1)faizsiz tələbli depozitlər | 94238,67 | |
| | c)Fiziki və hüquqi şəxslərin müddətli depozitləri | 334339,97 | |
| | cl) Fiziki şəxslərin müddətli depozitləri | 332010,96 | |
| | d)Hüquqi şəxslərin müddətli depozitləri | 2329,01 | |
| 3. | Digər bankların tələbləri("Loro")hesabları cəmi: | | **145,51** |
| | a)Rezident banklar | 20,67 | |
| | b) Qeyri-rezident banklar | 124,84 | |
| 4. | Bankların və digər maliyyə müəssisələrinin depozitləri cəmi; | | **43035,86** |
| | a)Rezident banklar | 34000,00 | |
| | b)Qeyri-rezident banklar | 1566,75 | |
| | q)Rezident maliyyə institutları | 7469,11 | |
| 5. | Bankların kreditləri (7 gündən artıq olan müddətə) cəmi: | | **10000,00** |

| | | | |
|---|---|---|---|
| | a)Təminatsız | 10000,00 | |
| 6. | Digər maliyyə müəssisələrinin kreditləri(banklardan başqa)cəmi: | | **64902,51** |
| | a)Rezident maliyyə institutlarından alınmış | 64902,51 | |
| | b)Beynəlxalq təşkilatların | | |
| 4. | Hesablanmış faiz öhdəlikləri | | - |
| 5. | Bank tərəfindən buraxılmış subardinasiyalı və sair bu qəbildən olan borc öhdəlikləri (müddətli imtiyazlısəhmlərdə daxil olmaqla)Sair öhdəliklər | | **17000,00** |
| 6. | Digər passivlər | | **18832,17** |
| | ***Öhdəliklərin cəmi:*** | | **719045,25** |
| | **Kapital** | | |
| 1. | Dövriyyədə olan adi səhmlər(paylar) | | **125686,36** |
| 2. | Dövriyyədə olan müddətsiz imtiyazlı səhmlər(nominal və bazar qiymətləri arasındakı fərq daxil olmaqla) | | |
| 3. | Adi səhmlərin nominal və bazaar qiymətləri arasındakı fərq | | **483,77** |
| 4. | Ümumi ehtiyatlar | | **6852,01** |
| | -kreditlərdən,lizinqlərdən və banklararası tələblər üzrə mümkün zərərlərin ödənilməsi üçün adi ehtiyatlar | | |
| | -digər aktivlərdən olan mümkün zərərlərin ödənilməsi üçün adi ehtiyatlar | | |
| 5. | Bölüçdürülməmiş xalis mənfəət(zərər) | | **-36256,09** |
| | -əvvəlki illərin xalis mənfəəti(zərəri) | -47277,22 | |
| | -cari ilin xalis mənfəəti(zərəri) | 11021,13 | |
| | ***Kapitalın cəmi:*** | | **96766,05** |
| | ***Öhdəliklərin və Kapitalın cəmi:*** | | **815811,30** |

**İdarə Heyətinin Sədri:** **F.A.Hüseynov**

**İdarə Heyətinin sədrin 1-ci müavini,**
**İcraçı direktor, Baş Maliyyə inzibatçısı** **İ. A. Okayev**

**Hesabatların düzgünlüyünü təsdiq edirəm:**
**"S.L.S Audit-Consulting Xidməti" MMC** **X.C.Əliyev**
**Direktor-auditor**

**15 mart 2021-ci il**

## «UNİBANK»Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr

## 2020-ci il tarixə MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABATI

*min.AZN-lə*

| s.n | Gəlir və xərclərin maddələri | 2020-ci il 31 dekabr |
|---|---|---|
| 1. | Faiz və faizəbənzər gəlirlər | **87724.49** |
| 2. | Faiz və faizəbənzər xərclər | -28038,12 |
| 3. | Faiz borcları üzrə yaradılmış məqsədli ehtiyatlar | -524,78 |
| **A** | **Xalis faiz mənfəti(zərəri) 1-2** | **59161,59** |
| 3. | Qeyri-faiz gəlirləri | 30797,98 |
| 4. | Qeyri-faiz xərcləri | -70257,13 |
| **B** | **Xalis əməliyyat mənfəəti ( zərəri)3-4** | **19702,45** |
| 5. | Aktivlərin üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırmalar(xərclər) | -8345.87 |
| 6 | **Vergilər və bank fəaliyyəti ilə bağlı göznəlilməz xərclər ödənilənədək xalis mənfəət(zərər) A+B -5** | **11356,58** |
| 7. | Sair mənfəət | - |
| **8.** | **Vergilər ödənilənədək xalis mənfəət(zərər) 6+7** | **11356,58** |
| 9. | Mənfəət ödənilən vergilər | -335,45 |
| **10** | **Vergilər çıxıldıqdan sonra xalis mənfəət (zərər) 8-9** | **11021,13** |

**Balansarxası öhdəliklər.**

**Min.AZN-lə**

**Öhdəliklər** **01.01.2021-ci ilə.**

1.Qarantiyalar və bu qəbildən olan öhdəliklər------------------------------------------------5548,06
2.Kredit alətləri---------------------------------------------------------------------------------89219,57
3.Akkreditivlərcəmi----------------------------------------------------------------------------104,45
4.Forvard və fyuçer müqavilələri-----------------------------------------------------------9079,00
5.Svop müqavilələri əsasında-----------------------------------------------------------------437,00
6.Xarici valyuta müqavilələri üzrə təəhhüdlər--------------------------------------------0.00

**İdarə Heyətinin Sədri:** **F.A.Hüseynov**

**İdarə Heyətinin sədrin 1-ci müavini,**
**İcraçı direktor, Baş Maliyyə inzibatçısı** **İ. A. Okayev**

**Hesabatların düzgünlüyünü təsdiq edirəm:**
**"S.L.S Audit-Consulting Xidməti"MMC**
**Direktor-auditor** **X.C.Əliyev**
**15 mart 2021-ci il**

**"UNİBANK"KB ASC-nin**

**31 dekabr 2020-ci il tarixə**

# KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI

*məbləğlər min manatla göstərilmişdir*

| | Qeyd | Qaytarıla bilən iştirakçı kapitalı | Əlavə Kapital | Bölüşdürül -məmiş mənfəət (zərər) | Adi səhmlərin arasında fərq | İştirakç kapitaını cəm |
|---|---|---|---|---|---|---|
| **01 yanvar 2020-ci il tarixə qalıq** | | **125686,36** | **4968,20** | **-40925,71** | **483,77** | **90212,6** |
| 2020-ci il üzrə xalis mənfəət (zərər) | | - | - | 11021,13 | - | **11021,1** |
| Qaytarıla bilən iştirakçı kapitalında artım | | 0,00 | 0,00 | 0,00 | - | **0,00** |
| Ödənilmiş dividendlər | | - | | (6353,63) | - | **(6353,63** |
| Digər ehtiyatlar | | | 1883.81 | | - | **1883,8** |
| Maddələr arasında düzəlişlər | | - | - | 2,12 | | **2.1** |
| **31 dekabr 2020-cı il tarixə qalıq** | | **125686,36** | **6852.01** | **-36256,09** | **483,77** | **96766,0** |

**İdarə Heyətinin Sədri:** **F.A.Hüseynov**

**İdarə Heyətinin sədrin 1-ci müavini,**
**İcraçı direktor, Baş Maliyyə inzibatçısı** **I. A. Okayev**

**Hesabatların düzgünlüyünü təsdiq edirəm:**
**"S.L.S Audit-Consulting Xidməti" MMC**
**Direktor-auditor** **X.C.Əliyev**

**15 mart 2021-ci il**

## "UNİBANK"KB ASC-nin 31 dekabr 2020-ci il tarixə pul vəsaitlərinin hərəkəti haqqında hesabat

min manatla

| | |
|---|---|
| Alınmış digər əməliyyat gəlirləri | 370 |
| Ödənilmiş digər əməliyyat xərcləri | - 12 880 |
| **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl bank fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | |
| **Əməliyyat aktivlərindən xalis artım/azalma** | **- 112 441** |
| Banklara verilmiş kreditlərdə  və depozitlərdə xalis artım (azalma) | - 27 458 |
| Müştərilərə verilmiş kreditlərdə xalis artım (azalma) | - 78 659 |
| Digər aktivlərdə xalis artım (azalma) | - 6 325 |
| **Əməliyyat öhdəliklərindən xalis artım/azalma** | **22 699** |
| Banklardan və digər maliyyə təşkilatlarından cəlb olunan vəsaitlər üzrə xalis artım (azalma) | 24 515 |
| Mərkəzi Bank üzrə öhdəliklırdə xalis artım (azalma) | 6 714 |
| Müştərilərin depozitləri və cari hesablarında xalis artım (azalma) | - 8 365 |
| Digər öhdəliklərdəxalis artım (azalma) | - 165 |
| **Mənfəət vergisindən əvvəl bank fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **- 61 989** |
| Ödənilmiş mənfəət vergisi | - 2 231 |
| **Əməliyyat fəaliyyəti ilə əlaqədar generasiya/istifadə edilən xalis pul vəsaitləri** | **- 64 219** |
| **İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | |
| Əmlak və avadanlıqların alınması və avans ödənişləri | - 14 800 |
| Əmlak və avadanlıqların satılmasından daxilolmalar | 2 448 |
| Qeyri-maddi aktivlərin alınması | - 2 936 |
| Qeyri-maddi aktivlərin satılmasından daxilolmalar | - |
| Alınmış dividendlər | |
| Satış üçün nəzərdə tutulan investisiya qiymətli kağızlarının satılması və geri alınması | 44 714 |
| Digər | - 4 |
| **İnvestisiya fəaliyyəti ilə əlaqədar generasiya/istifadə olunan pul vəsaitlərinin hərəkəti** | **29 422** |
| **Maliyyələşdirmə fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin hərəkəti** | |
| Digər borc öhdəliklərinin əldə olunması | - |
| Digər borc öhdəliklərinin ödənilməsi | - |
| Subordinasiya borclarının əldə olunması | - |
| Subordinasiya borclarının ödənilməsi | - |
| Səhmdar kapitalının buraxılmasından daxilolmalar | - |

| | | |
|---|---|---|
| Ödənilmiş dividendlər | - | 6 354 |
| Digər maliyyə öhdəliklərinin cəlb edilməsi (ödənilməsi) | | |
| **Maliyyələşdirmə fəaliyyəti ilə əlaqədar yaradılan/istifadə olunan pul vəsaitləri** | - | **6 354** |
| **Dövrün əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | | **142 949** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artma/(azalma)** | - | **41 151** |
| **Məzənnə dəyişikliyinin pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə təsiri** | | **301** |
| **Dövrün sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | | **102 099** |

**İdarə Heyətinin Sədri:** **F.A.Hüseynov**

**İdarə Heyətinin sədrin 1-ci müavini,**
**İcraçı direktor, Baş Maliyyə inzibatçısı** **İ. A. Okayev**

**Hesabatların düzgünlüyünü təsdiq edirəm:**
**"S.L.S Audit-Consulting Xidməti" MMC**
**Direktor-auditor** **X.C.Əliyev**

**15 mart 2021-ci il**